# GÖY QURŞAĞI

UŞAQ JURNALI
№ 1 (64) - 2018




Əzimli Günel. Azərbaycan nağılı


Huseynov Əli. Qazax nağılı


Məmmədəli Nihad. Qazax nağılı


Salmanova Şölə. Karakalpak nağılı


Baxışova Validə. Qırğız nağılı





Rzazadə Fidan. Barabin tatarları


Nadirova Nərmin. Çuvaş nağılı


Kərimli Əbülfət. Tofalar nağılı


Rzazadə Fidan. Şor nağılı

# ÇOXBİLMİŞ ÇƏPİŞLƏR

Xanımana Əlibəyli

Üç çəpiş bəzənib verdi qol-qola,
Sevinclə düşdülər bir səhər yola.
Onlar yol boyunca nəğmə oxudu,
Hara gəldi özlərini toxudu.
Rast gəlib canavar soruşdu: - Hara?
Çəpişlərdən biri dedi: - Bazara.
Canavar dilləndi çatanda tinə,
Dedi ki, həsrətəm çəpiş ətinə.
Mənim ürəyimə çəkdin dağ, çəpiş,
Gəl, səni hopp edib yeyim, ağ çəpiş!
Canavar gətirdi zara çəpişi,
Ağ çəpiş dedi: - Ye, qara çəpişi.
Canavar çatanda o biri tinə,
Dedi ki, həsrətəm çəpiş ətinə.
Gəl, səni mən yeyim, a qara çəpiş,
Gedə bilməyəsən bazara, çəpiş.
Əl atdı ki, bölsün yarı çəpişi,
O dedi ki, get, ye sarı çəpişi.
Canavar çatanda üçüncü tinə,
Dedi ki, həsrətəm çəpiş ətinə,
Qolunu boynuma gəl sarı, çəpiş,
Qoy səni mən yeyim, a sarı çəpiş!
Sarı çəpiş dedi: - Dostum canavar,
Dünyada konfetdən ləzzətli nə var?
Sənə soyuq olar, durma, evə get,
Bazardan alarıq çoxluca konfet,
Gətirərik onu evinə birbaş,
Hərdən at ağzına, ye yavaş-yavaş.
Canavar, bu sözə tez oldu şərik,
Dedi ki, Alarsız bir az da ərik.
Çəpişlər gülərək, verdi qol-qola,
Üçü də birlikde düşdülər yola.

Çəpişlər bazara qaçdı o saat,
Yedilər çoxluca konfet, marmelad.
Oynaya-oynaya gəzib hər yeri,
Sonra da sevinclə döndülər geri.
Qalmadı nə konfet, nə marmeladdan,
Canavar büsbütün çıxmışdı yaddan.
Birdən sarı çəpiş kəndə çatanda,
Gördü canavarı o, günbatanda.
Dedi:-Canavarın bəs payı hanı?
Gəlib, dağıdacaq indi dünyanı.
Onlar evə girib, qapını vurdu,
Canavar yüyürüb, həyətdə durdu.
O ətrafa baxıb tez çaldı zəngi,
Birdən çəpişlərin saraldı rəngi.
Canavar dedi ki, verin payımı,
İndiyəcən içməmişəm çayımı.
Tez açın qapını, iştaham qaçar,
Ağ çəpiş dedi ki, itibdir açar.
Qapı kilidlidir, get, bacadan düş,
Birbaş şirniyyatın üstünə sürüş.
Canavar yüyürüb dama dırmaşdı,
Tullanıb bacadan ocağa aşdı.
O saat alışıb-yandı ocaqda,
Üç çəpiş salamat qaldı otaqda.



# Hər millətin ən qiymətli sərvətidir ana dili



**21 fevral Beynəlxalq Ana Dili Günüdür**





*Payızın pıçıltısı*
*Baharın nəfəsidi.*
*Küləklərin çəmənlə*
*Danışmaq həvəsidi...*
*Bir bülbül cəhcəhidi*
*Bir "Vağzalı" səsidi.*
*Əvəzsizim, gərəklim*
*Xeyirxahım, səmimim*
*Ana dilim...*





F.Köçərli adına Respublika Uşaq Kitabxanasında, 21 fevral Beynəlxalq Ana Dili Günü ilə əlaqədar "Hər millətin ən qiymətli sərvətidir ana dili" adlı tədbir keçirildi. Tədbir çərçivəsində tanınmış dilçi alim, Əməkdar Elm Xadimi, Milli Məclisin deputatı, Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərovla tələbələrin görüşü oldu. Əvvəlcə iştirakçılar kitabxananın foyesində Azərbaycan dilinin tədqiqinə aid kitablarla, eləcə də akademikin monoqrafiya və elmi əsərlərindən ibarət sərgi ilə tanış oldular. Tədbirin əsas məqsədi ana dilimizi qorumaq, yaşatmaq, dilimizin gözəlliyini və müqəddəsliyini yeniyetmə və gənclərə çatdırmaq, onlara dilimizi sevdirmək idi. Tədbiri giriş sözü ilə, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Ş. Qəmbərova açaraq Azərbaycan dilinin dünya dilləri içərisində ahəngdarlığı, zənginliyi, tariximizi bu gün də yaşatmağa kömək edən bir dil olduğunu vurğuladı:"Ana dilimiz milli sərvətimizdir. Hər şey ana dilindən başlayır. O, ana qədər müqəddəsdir. Vətənə bağlı hər bir şəxs əli silahlı əsgər kimi onu sevməli və sevdirməyi bacarmalıdır". Sonra söz akademik, dilçi alim Nizami Cəfərova verildi. Natiq öz nitqində ana dili ilə bağlı ətraflı çıxış edərək, tarixin müəyyən dövrlərində dilimizin düşmən qüvvələrinin təzyiqinə məruz qalmasından, lakin xalqın milli birliyi və qüruru sayəsində dilimizi qorumağa müvəffəq olduğunu, bu işdə tarixən görkəmli sərkərdələrin, dövlət xadimlərinin xidmətlərinin az olmadığını, müasir dövrdə isə Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulduğunu bu gün isə ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini xüsusi ilə vurğuladı. Daha sonra Azərbaycan dili haqqında şeirlər, Əməkdar artist Firuz Səxavətin ifasında muğam parçaları səsləndirildi.



# Hərəyə bir kitab... Hərəyə bir sevinc...













Bu hadisə 35 nömrəli tam orta məktəbdə baş verdi. Fevralın 14-də. Beynəlxalq Kitabbağışlama Günündə. Kitabla bağlı bütün tədbirlər, sözün əsl mənasında, HADİSƏdir. F.Köçərli adına Respublika Uşaq Kitabxanası və 5 nömrəli Uşaq- Gənclər İnkişaf Mərkəzinin birgə təşkil etdiyi "Hərəyə bir kitab" adlı tədbir bütün iştirakçılarına kitab sevinci yaşatdı. Bol-bol, quçaq-qucaq. Qəlb dolusu. Tədbir, uşaqların ifasında milli rəqs və flash-mobla başladı. Musiqili açılışdan sonra oxucular, Respublika Uşaq Kitabxanası tərəfindən gətirilən bir-birindən maraqlı kitablarla tanış olub, dünyanın ən sevimli hədiyyəsini - kitab aldılar. Tədbirdə, uşaq yazıçıları, Bakı Şəhəri üzrə Təhsil İdarəsindən nümayəndə, valideynlər iştirak edirdilər. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova çıxışında balaca oxuculara onların söz ehtiyatının artması və səlis nitq qabiliyyətinə sahib olması üçün kitab və mütaliənin ən yaxşı vasitə olduğunu vurğuladı. Daha sonra uşaq yazıçıları Aygün Bünyadzadə, Qəşəm İsabəyli və Gülzar İbrahimova kiçik oxuculara ən maraqlı uşaq ədəbiyyatı nümünələrindən söhbət açdılar. Tədbir zamanı, kitab haqqında müxtəlif şeirlər söyləyən və milli nağıllarımız əsasında səhnələşdirilən tamaşada iştirak edən uşaqlara yazıçıların ən son nəşr olunan imzalı kitabları hədiyyə olundu. Kitabbağışlama gününə həsr edilmiş tədbir, böyükdən tutmuş kiçiyə kimi hər kəsin ürəyincə oldu. Başqa nə cür ola bilər ki?! 400 nüsxədən çox kitab hədiyyəsi ilə yekunlaşan tədbir bu qədər sevgiyə layiq idi.




# Bəkkar kitabxanada

Bəkkar kitabxanaya gedəndə yolda Həmmam və Həssunə ilə rastlaşdı. Salamlaşdıqdan sonra Həmmam Bəkkarı onlarla oynamaq üçün çağırdı. Bəkkar üzrxahlıq edib dedi:

– Mən kitabxanaya gedirəm.

Bəkkarın dediklərinə təəccüblənən Həmmam Həssunədən soruşdu:

– Nə üçün Bəkkar oxumağı oynamaqdan üstün tutur?

Bəkkar kitabxanada oğlan və qızların sakit-sakit oturub, həvəslə oxuduqlarını gördü. Dənizin dərinlikləri haqqında gözəl bir kitab seçdi və açıb oxumağa başlayan kimi dalğıc olduğunu təsəvvür etdi: “Bəkkar dənizin dibinə endi, orada rəngarəng, gözəl balıqlara və mərcanlara tamaşa etdi. Qorxulu köpək balıqları və balinalarla rastlaşdı, bir mehriban delfinin belinə mindi. Kitabın sonunda onların hamısı ilə vidalaşdı və söz verdi ki, bir də yanlarına gələcək”.

Bəkkar bu gözəl kitabı yerinə qoyub, meşə heyvanları haqqında başqa bir kitab götürdü. Oxumağa başlayan kimi özünü meşədə gəzən bir səyyah kimi təsəvvür etdi: “Bəkkar nadir quşlara və qəribə bitkilərə tamaşa etdi. Birdən yırtıcı şirlərin qarşısında olduğunu gördü. Sonra ağıllı şimpanze meymunları onu böyük və gözəl ağaclar arasında gəzdirdilər. Kitabın sonunda bütün heyvanlarla vidalaşdı və söz verdi ki, bir də yanlarına gələcək”.

“Hələ başqa bir kitab da oxumağa vaxtım var”, – düşünərək, meşə haqqındakı

kitabı yerinə qoyub, kosmos haqqında başqa bir kitab götürdü. Oxumağa başlayan kimi özünü kosmonavt kimi təsəvvür etdi: “O, ulduzlar və planetlər arasında yeni bir raket sürdü. Kosmosdan gördüyü Yer kürəsinin gözəlliyi onu valeh etmişdi. Təbii ki, kosmik gəmi ilə kitabxananın yanında Yerə endi”.

Bəkkar kitabxanadan çıxanda şad görsənirdi. Həmmam və Həssunə ona təəccüblə baxaraq, bir-birindən soruşdular:

– Nə üçün Bəkkar bu qədər şaddır?!



# Bərpa nəşr







## Balaca işıqçı

Fərhad işıqçı olub,
Fərhad yaman yorulub...

Dirəklərin yerini
Ölçür-biçir min kərə,
Yulğun çubuqlarını
Basdırır bir-bir yerə.

Məftili – qırmızı sap...
Addımbaşı qırılır.

İki xətti çəkincə
Gün batır, axşam olur.

Həyətin bir küncündə
Sədaqət evcik qurub;
İşığı yoxdu hələ
Qaranlıqda oturub.

Bu gün təzə otaqlar
Çıraqban olsun gərək;
Axşam Sədaqətgilə
Çoxlu qonaq gələcək.

Fərhad yaman tələsir,
Barmağını sap kəsir:
"Qoy kəssin də, nə olar,
Təki yansın işıqlar!"





## Çanaqlı bağa və qurbağa

Bir çanaqlı
Çağa bağa
Girdi bağa,
Oynamağa.
Bir qurbağa
Gördü onu
Qoydu lağa:
"Buna bax a!
Buna bax a!
Əynindəki
Qına bax, a!"

Yaman qorxdu,
Çağa bağa.
Elə qaldı
Baxa-baxa.
Sonra dedi:
"Sən də bağa,
Mən də bağa.
Təkcə «qur»un
Artıqdı ha!
Çox döşünə
Döymə qağa!
Quruldama
Lovğa-lovğa".



## Dovşan

Məktəbin həyətində
Bir evcik var taxtadan;
Bu evcikdə yaşayır
Uzunbığlı boz dovşan.

Boz dovşan evciyində
Yatıb-durur, dincəlir,
Hər gün balaca Əhməd
Onu görməyə gəlir.

Əhməd dovşana baxır,
Dovşan Əhmədə baxır.
Əhməd dovşandan qorxur,
Dovşan Əhməddən qorxur.







# Dovşan Edvardın qeyri-adi səyahəti

*On altıncı bölüm*

– Brays, – qarı qışqırdı, – nə yapışmısan ora?! Mən sənə pul verirəm ki, sən bütün günü gözlərinin bərəldib dovşana baxasan?!

– Yaxşı, xanım. – Oğlan dedi, amma tozlu əlinin dalı ilə burnunu silə-silə Edvarda baxmağa davam etdi.

Gözləri qızılı-şabalıdı rəngdə idi.

– Eyy, salam, – deyə Edvardı pıçıltı ilə salamladı.

Edvardın başına qonmaq istəyən qarğanı əli ilə qovdu:

– Kişşş... Kiş! Səninlə deyiləm? Uç burdan.

Qarğa qanadlarını yellədi və uçub getdi.

– Ey, Brays, – qarının səsi gəldi.

– Bəli, xanım.

– Gözünü çək dovşandan və işini gör. Bir də deməyəcəm, ha. Atacam səni bayıra.

– Baş üstə, xanım. – Brays dedi və əlinin dalı ilə yenə də burnunu sildi. Gizlicə Edvarda baxıb pıçıldadı. – Darıxma, gəlib aparacam səni.

Dovşan bütün günü asılı qaldı. Qızmar günəş onu yandırdı. Gözlərini bir dəqiqə olsun belə dirrikdə yer belləyən Braysla qarıdan ayırmadı. Qarının başı qarışan kimi Brays imkan tapıb əlini qaldırır və Edvardı salamlayırdı.

Quşlar başının üstündə qanad çalır və onu ələ salırdılar.

“Maraqlıdır, qanadlı olmaq necə bir hisdir?!” – deyə Edvard düşünürdü. Bəlkə də onun qanadları olsaydı, gəminin göyərtəsindən atılanda okeanın dibinə düşməzdi. Ucsuz-bucaqsız okeanın dibinə sancılmaqdansa masmavi səmalarda süzər və həyatın dadını çıxardardı. Hətta Lolli onu zibilliyə atanda belə, sadəcə qanadlanar, onun arxasınca qaçar və iti caynaqları ilə təpəsini deşərdi. Elə yük qatarındakı əhvalat da baş verməzdi. Qatardan bayıra atılanda üzüüstə torpağa düşməzdi, havaya qalxardı. Uçub qonardı qatarın üstünə və onu bayıra vızıldadan qəddar qarovulçuya necə lazımdı dərs keçərdi. Ən azından bütün günü qarıldayıb başını xarab edərdi.

Günün sonunda Braysla qarı dirrikdən çıxdılar. Edvardın yanından keçəndə Brays ona göz vurdu. Sonra qarğalardan biri uçub onun çiyninə qondu və başladı farfor sifətini dimdikləməyə. Bununla o, Edvarda başa salmağa çalışırdı ki, xam xəyallara düşməsin. O, quş deyil və heç bir vaxt da uça bilməyəcək. Hətta uçmaq bir yana, əlini-ayağını belə tərpədə bilməyəcək.

Hava toranlaşdı. Az sonra əməlli-başlı qaranlıq düşdü. Çobanaldadan quşu oxudu. Bu, Edvardın bütün ömrü boyu eşitdiyi ən kədərli nəğmə idi.

Birdən kimsə dodaq qarmonunda çaldı. Qaranlıqdan Brays boylandı.

– Salam, – dedi Edvarda. Sonra əlinin dalı ilə yenə burnunu sildi və dodaq qarmonunu dodaqlarına yaxınlaşdırıb başqa bir nəğmə səsləndirdi. – Mərc edərəm ki, sən mənim qayıdacağıma inanmırdın... Doğrudur? Amma mən qayıtdım. Səni xilas etməyə gəldim.

“Çox gecdir. – Edvard düşündü. – Brays onun bağlandığı məftilləri burub açmağa başladı. Amma Edvard hələ də öz düşüncəsində israrlı idi. – Daha məndən heç nə qalmayıb. Bütün həvəsim ölüb. Qalan bir quru görüntümdür. Vəssalam”.

Brays isə hələ də onu açmağa çalışırdı. Əllərini, qollarını, qulaqlarını...

“Təəssüf, – deyə Edvard düşünürdü. – Mən indi sadəcə kuklayam. Cansız farfor kukla”.

Nəhayət, Edvard Braysın qucağına düşdü. Əvvəlcə rahatlaşdı. Sonra hətta sevindi də.

“Nə deyim?! Bəlkə də hələ o qədər gec deyil, – deyə düşündü. – Yəni ki, azad olunmağıma dəyər”.

**Rus dilindən çevirdi**
**SEVİNC NURUQIZI**

# Planetin ən qəribə bitkiləri



Platiserium və yaxud “Maral buynuzu” — ayıdöşəyikimilər fəsiləsinin nümayəndələrindən biri



Tillandsia xerographica (Tillandsiya kseroqrafika)



Havorthia ikra



Adenium dənizulduzu. Bitkini əkən zaman onun köklərini bu qaydada şəkilləndirirlər



Dioscorea elephantipes (Donuz dioskoreyası)



Madaqaskar ravenalası. Maraqlıdır ki, təbiətdə bitən ravenalanın çətiri qərbdən şərqə istiqamətlənir. Ona görə də bu bitkini səyahətçi ağacı da adlandırırlar.







Gənc musiqiçi və bəstəkar, 160 saylı klassik qimnaziyanın və Rəşid Behbudov adına 2 saylı musiqi məktəbinin şagirdi Konsedaylo Ruslan

Ruslan 5 yaşından musiqinin sehrinə düşüb. Dəfələrlə M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının, R. Behbudov adına Mahnı Teatrının səhnələrində, Rusiya Məlumat mərkəzində keçirilən konsertlərin iştirakçısı olub. 2016-cı ildə Parisdə və Moskvada keçirilən beynəlxalq müsabiqələrin II dərəcəli, 2017-ci ildə isə Praqada I dərəcəli laureatı adını qazanıb. Əsərləri uşaq sərgilərinin açılış mərasimlərini bəzəyib, istedadlı Azərbaycan gənclərinin konsertlərində alqışlarla qarşılanıb. Onun musiqili əsərləri arasında şəhidlərə həsr etdiyi “Beşik nəğməsi”, “Elegiya” və s. maraqla dinlənilir. Sputnik telekanalına verdiyi müsahibələrdən birində o belə deyib:”Bəstəkar və musiqiçi olmaq, Azərbaycanı bütün dünyada tanıtmaq istəyirəm”.

Puslan həm də dərs əlaçısıdır. Və coğrafiya, biologiya, fizika və kimya fənlərini çox sevir. Boş vaxtlarında rəsm çəkir. Rusiya Məlumat Mərkəzində keçirilən “Qoy həmişə günəş olsun” adlı sərginin və F. Köçərli adına Respublika Uşaq Kitabxanasının “Türk xalqlarının nağılları” layihəsinin iştirakçısıdır. O, olduqca səmimi və ağıllı oğlan, gözəl dost və maraqlı həmsöhbətdir.  Biz də Ruslana Vətənin gələcəyi yolunda gördüyü işdə uğurlar arzu edirik!

# Sevginin qorxuya üstünlüyü

Qoca bir dənizçinin bir oğlu vardı. O da böyüyüb atası kimi dənizçi olmaq istəyirdi. İllər keçdi, oğlan öz arzusuna çatdı. O, gəmi ilə tez-tez ölkələr gəzirdi. Növbəti səyahətin onuncu günündə bədbəxt hadisə baş verdi. Dənizin qorxunc dalğaları gəmini bir həmləyə uddu və gəmi batdı. Oğlan üzə-üzə quruya çatdı. Ancaq dəniz onu dəhşətli dərəcədə sarsıtmışdı. Buna görə də, dənizçi ömürlük dənizdən qorxdu. Bir daha dənizə girməyəcəkdi. Dənizçi tanımadığı ölkədə yaşamağa başladı. İşə düzəldi, illər sonra evləndi və bir oğlu oldu. Oğul böyüdükdən sonra dənizçi olmaq sevdasına düşdü. Əlbəttə, ata öz oğluna qarşı çıxdı. Bununla razılaşmayan oğul dənizçi olmaq arzusu ilə evdən qaçdı. Ata oğlunun  yoxluğu ilə barışa bilmirdi, ancaq onun dəniz adlı bir qorxusu vardı. Bir daha dənizlə görüşməyəcəkdi... Ata həsrətə dözməyib gəmiylə oğlunu axtarmağa yollandı. Müəyyən vaxtdan sonra ata oğlunu tapdı. Atanın bir ovucluq qəlbindəki övlad sevgisi dəniz boyda qorxuya üstün gəlmişdi.

# Toğrulun dostu Həsən

Toğrul Həsənlə bir sinifdə oxuyurdu. Hər gün birlikdə məktəbə gedər, dərslərini birlikdə oxuyardılar. Yaxın qonşu olduqları üçün həyətdə də birlikdə oynayıb, istirahət edərdilər. Bir gün Həsənin atası işlədiyi zavodda iş zamanı yaralanır. Həsən ailəsindəki bu qanqaralıqdan məyus olur. Bu narahatlıq onu dərs boyunca təqib edir. Toğrul məsələnin həllini tapmadığı üçün dostunu sakit səslə çağırmağa başlayır, ancaq Həsən sanki onu duymur. Müəllimə Toğrulu görür və onu danlamağa başlayır. Toğrul isə qəzəblə dostunun üzünə baxır, çünki günahı onda görürdü.

Dərs qurtardı. Toğrul qəmgin dostu Həsənin yanından yel kimi keçib getdi.Tələsirdi. Toğrulu evdə bir xoş sürpriz gözləyirdi. Atası ona çoxdandır arzuladığı velosipedi almışdı. Toğrul dərsdəki pərtliyi o saat unutdu.  Velosipedi ilə həyətə çıxdı. Təzə velosiped Toğrula, əlbəttə, yeni dostlar qazandırdı. O, yeni dostlara həvəslə yeni velosipedindən danışır və arada da balkondan onlara baxan Həsəni acıqlı baxışlarla süzürdü. Sonra velosipedə minib sürətlə sürməyə başladı. Sürətini azalda bilmədiyi üçün ağaca çırpıldı. Həmin andaca əzilmiş velosiped bir yana, özü isə tam ayrı səmtə düşdü. Uşaqlar bir anlığa əzilmiş velosipedi dövrəyə alıb, fikir bildirdilər. Toğrulun qanamış dirsəyindən və dizindən hər kəs xəbərsiz idi. Olanların çaşqınlığını üzərindən ata bilməyən Toğrul hiss etdi ki, kimsə qolundan tutub onu qaldırır və həmin an yana çevrildi. Bu, onun əsl dostu Həsən idi. Həsənin əlində pambıq, bint və yod var idi. Həsən dərhal Toğrulun zədələrinə yod vurub sarıdı. Az keçmədən həyətdə təcili yardım maşını dayandı. Həkimlər Həsəngilin evlərinə yön alanda Toğrul təəccüblə Həsənə baxdı. Həsən dostunun sual dolu baxışlarını anladı. O, asta səslə: “Atam xəstədir”, - dedi və göz yaşlarını saxlaya bilmədi. Toğrul kədər və peşmanlıq dolu baxışlarla dostuna: “Məni bağışla, Həsən”, - dedi.



**Əli Kərimli**
12 saylı məktəbin
V sinif şagirdi

# Diyirləndi dərəyə dələ, Dərədə dəydi dirəyə dələ...



Ah... Dələlər... Dələlər...Necə də qorxaq və dəcəldilər. Çooox qorxaq və çooox dəcəl. Çox da çalışqan. Çox da iştahlı. Çox da səmimi və cəld. Həm də çox şən və pozitiv. Bütün bunlara əmin olmaq istəsən, dələlər haqqında bəzi məlumatları oxu. Onda görərsən ki: Dələ bütün qışı üç minə yaxın qoz-fındıq yeyir.

Dələnin quyruğu onun sükanıdır — hoppanma zamanı uçuşu quyruğu ilə idarə edir. Avstraliya və Antarktidadan başqa bütün materiklərdə yaşayır.

Dələ quyruğu istisna olmaqla, ildə iki dəfə xəzini dəyişir. Onlar bir-biri ilə quyruqlarını tərpətməklə danışırlar.
Dələ 20-30 metr hündürlükdən hoppanır və heç bir xəsarət almır.



Çünki o quyruğundan paraşüt kimi istifadə edir və uğurla yerə enir.



Afrikada yaşayan karlik-dələnin burnunun ucundan tutmuş quyruğunun ucuna qədər uzunluğu cəmi 2,5 sm. olur.





Dələ yerfındığını sevmir və yeyərsə, xəstələnə bilir.



Tez-tez qoz-fındıq yığdığı yeri — saxlancı unudur. Çünki onun qoz-fındıq anbarları saysız-hesabsızdır.

Bir gündə yüzlərlə küknar qozası toplaya bilir. Sonra aylarla topladıqlarını yeyir.



Əsasən bitki ilə qidalanan dələ bəzən quş yumurtasına tamah salır. Və bəzən hətta bala dovşanlara hücum da edə bilir. Belə çıxır ki, dələ hər şey yeyəndir.

Dələnin xəzi ağ, boz, kürən, qəhvəyi və qara ola bilər.

Dələlər tək yaşamağa üstünlük verirlər. Yalnız güclü şaxtalar zamanı bir neçə dələ soyuqdan qorunmaq məqsədilə bir yuvaya yığışa bilir.

2-8 il yaşayırlar.





Dələ əla üzgüçüdür. Üzərkən quyruğunu havada saxlayır. Əgər quyruğu islansa, dələ batar. İslanmış xəz ona ağırlıq edər və suyun dibinə çəkər.



Dələnin dal pəncələri yaxşı inkişaf edib. Qabaq pəncələri isə qısa və nisbətən gücsüzdür. Amma onların birgə işi nəticəsində dələ 20 m uzunluğa tullana bilir.







Dələ yığdığından az yeyir. Orta hesabla qış boyu yığdığının üçdə birini ancaq yeyib qurtara bilir. Bir həftə ərzində öz çəkisi ağırlıqda qıda qəbul edə bilir.
4 qabaq dişi başqa gəmiricilərdə olduğu kimi durmadan böyüyür. Kor doğulduqları üçün yalnız 6-8 həftədə görməyə başlayır.

# Kosmosda *həyat*

*Kosmosda heç vaxt olmayanlar oradakı həyat haqqında müxtəlif fərziyyələr söyləyə bilər. Amma heç kəs kosmik gəminin göyərtəsində nələr baş verdiyini kosmonavtlar kimi yaxından anlaya və dərk edə bilməz. Kosmik heyətin həyat şəraitinə yaxından nəzər salmaq fikrinə düşdüm. Müşahidələrimi səninlə bölüşmək qərarına gəldim, dost.*




## *Nə geyinmək lazımdır*

İlk uçuşlarda düz yerə enənədək kosmonavtlar skafandr geyinirdilər. Amma sonralar bunu yalnız ciddi iş zamanı – orbitə çıxış, enmə və s. hallarda geyindilər. Qalan vaxtlarda adi geyimdə olurlar. Amma bu paltarlar xüsusi ilgəklərlə təchiz olunur.



## *Hamam keyfi*

Əvvəllər kosmonavtlar təmizlik məqsədilə nəm salfet və süngərlərdən istifadə edirdilər. İndi isə kosmik gəmilər hamam rolunu oynayan xüsusi torbaşəkilli qurğu ilə təchiz olunub. Qurgunun rütübəti sorma qabiliyyəti var. Amma çimməzdən öncə kismonavtlar xüsusi kəmərlərlə ayaqlarından həmin torbaya bağlanırlar. İstifadə edilən su təkrar istifadə üçün nəzərdə tutulub.



## *Elə evdəki kimi*

Orbital stansiyada hər şey maksimum Yerdəkinə bənzədilib. Tavan elə evdəki tavan rəngindədir. Amma əlindən nə düşsə, yerə düşmür. Havada uçur. Çünki cazibə qüvvəsi yoxdur.



## *Nə yemək və necə yemək*

Hamıya yaxşı məlum olan kosmonavt yeməyi tubiklərdəki qidalardır. İndi isə onlar tam hazır qida ilə qidalanırlar. Hazır olması üçün yalnız su əlavə etmək lazım gəlir. Menyü Yerdə olarkən test edilmiş yeməklərdən tərtib edilir – dana, donuz və toyuq əti, şorba, meyvə şirəsi və hətta dondurma. Yalnız istiot və duz maye halda olur. Çünki onlar dənəvər halda olsa, kiçik zərrəciklər havada uçuşub nəfəs borusuna düşə bilər.



## Ciblər

Adi ciblər kosmosda tam yararsızdır. Onlarda heç nə saxlamaq olmaz. Hər şey çıxıb havada uçmağa başlayacaq. Ona görə də kosmosda ciblər xüsusi bərkitmələrlə təchiz olunur.

## Bütün uçuş boyu yalnız bir cüt

Bütün uçuş boyu yalnız bir cüt ayaqqabı lazım olur. Bunu da kosmonavtlar idman edəndə geyinirlər.

## İkiqat altlıqlı corablar

İş zamanı kosmonavtlar ayaqlarını yerə çox dirədiklərindən daban tez-tez zədə alır. Bu məqsədlə onlar ikiqat altlıqlı maxer corablar geyinirlər.



## Çəkisizlikdə yuxu

Yerdə xoruldayanlar kosmosda xoruldamır. Xüsusi kisələrdə yatırlar. Yatmazdan öncə kəmərlərlə yataq kisələrinə bağlanan kosmonavtlar rahatca yatıb istirahət edə bilər.









## Kosmosda çörək

Kosmik stansiyada çörək yemək qadağandır. Kiçik çörək qırıntıları havatəmizləmə qurğularına və elektron sistemə düşə, onların işində fasilələr yarada bilər. Kosmos tarixində yalnız bir dəfə astronavtlar çörəkdən istifadə ediblər. Bu hadisə 1965-ci ildə olub. Heyətin ikinci pilotu Con Yanq xəlvətcə kosmik gəmiyə sendviç aparıb. Və paketdən çıxardıb yemək istəyəndə sendviç parça-parça olub. Qırıntılar müxtəlif istiqamətlərə uçuşub. Nə yaxşı ki, kabinənin içindəki elektrik panelinə düşməyib. Belə halda gəmi yana bilərdi.




*"A lamb for my supper will taste mighty fine!" Thought a wily old wolf by the name of Lou Pine As he sneakily, slyly snuck up on the flock – But it wasn't the sheep that were in for a shock. He chuckled, "How stunningly cunning I am!" As he slunk through the hedge and met…*

*Rambo the Ram. "Scram!" bellowed Rambo. "Vamoose! Steer clear! Wolves are NOT welcome! Buzz off out of here!"*

*"What I need," grumbled Lou, "is a sheepy disguise to give those dumb muttons a nasty surprise!"*

*So he wrapped himself up in a fluffy white gown that belonged to Ma Watson, the best shot in town. He lay on the road… to get covered in gunk. "Baa-ha!" laughed the sheep. "It's an overgrown skunk!" At the fair Lou saw folks eating floss on a stick. "A fleece out of floss! What a fabulous trick!" He flicked on the switch, and at first it was fun, but faster and faster and faster he spun… He looked in the mirror and felt his heart sink. He'd ended up dizzy, and sticky, and pink! Lou found a thicket of blossoming trees. Down came the blossom and down came the bees!*

*"I know!" spluttered Lou. "I've a brilliant plan! It's time for a trip to Red Riding Hood's gran!"*

*"Hello, Granny dearest! It's me, Little Red!"*

*"My word, what a big ball of wool!" Granny said. Lou dropped his hood and declared, "All the better for you to get cracking and knit me a sweater!*

*And if it's not done by the time I get back I'm just in the mood for a Gran-flavoured snack!"*

*The very next day Lou returned for a fitting And had to admit Gran was dandy at knitting. He chuckled, "How smashingly dashing I am!*










But Gran thought, "He'll pay me for knitting that woolly!
I'll play my own trick on that nasty big bully!"

While Lou wasn't looking, she grabbed a loose thread and tied it at once to the end of her bed...

As he slipped through the hedgerow, some ewes standing near Looked up at old Lou and said, "Morning, my dear! Can you check on our lambs? They're behind that big tree."

"No problem," said Lou. "You can leave them to me!"

"I fooled them!" thought Lou. "What a genius I am! Now shall I have cutlets? Or roast leg of lamb? Or chops and mint sauce? Or even lamb stew? Or burgers? Moussaka? Or lamb vindaloo?"



He hungrily hurried as far as the tree, and peered all about, but no lambs could he see. "They must be here somewhere. They can't have gone far. Come out, little lambkins, wherever you are!"



And then he heard footsteps. "Aha here's a lamb!" So you looked around and saw...

Rambo the Ram. He aimed his big horns at the wolf's derriere and sent him skedaddling up in the air. "Ouch! My behind!" howled Lou as he flew...

And landed kersplat in a big pile of poo!

"I think that's the last of the last of the wolf and his wiles,"

Laughed Rambo. "From now on we'll smell him for miles!"



# Oyunlarla dünya səyahəti

*Bir zamanlar həyətlərdən uşaq səsi kəsilməzdi. Hay-küylü oyunlar, qaçışan uşaqlar, pəncərələrə dəyən top və cingilti ilə sınıb ətrafa dağılan pəncərə şüşələri. İndi bunlar yoxdur. Heç həyətdə qaçışan uşaqlar da... Oyun meydançaları boş, həyətlərdə səssizlik... Bəs hanı bu uşaqlar?! Niyə həyətdə top dalınca qaçan, üzü divara gözlərini yumub hündürdən "Gizlənqaç, açdım qaç", - deyən uşaqlar gözə dəymir? Bax elə sən özün, dostum, haradasan? Oyun oynayırsan?! Bəs səsin gəlmir axı. Aaa... Bildim... Kompüter oyunu oynayırsan.*

*Mənimsə sənə deyiləcək sözüm var... Topaldıqaç, gizlənqaç, çumur-çumur və s. oynamaq istəmirsən, bəlkə dünya uşaqlarının oynadığı oyunlardan oynayasan?!*

## "Əjdaha quyruğundan tutuldu" (Çin)

**İştirakçıların sayı:** nə qədər çox olsa o qədər yaxşıdır.

**Oyun üçün lazım olanlar:** heç nə

**Oyunun qaydaları:** hamı sıraya düzülür və əllərini qarşıdakının ya çiyninə, ya da belinə qoyur. Birinci dayanan əjdahanın başı, sonuncu isə quyruğu hesab edilir. Sonra gülməli əhvalatlar baş verir. Əjdahanın başı quyruğunun ovuna çıxır. Quyruğa yaxın olan oyunçular başdan can qutarmaq üçün olduqca cəld və ayıq olmalıdırlar. Amma bu mübarizə zamanı əsas şərt odur ki, "əjdaha" dağılmasın. Uşaqlar bir-birindən aralanmasınlar.



## "Apelsinlərlə ödə" (Hana, Afrika)



**İştirakçıların sayı:** hər komanda üçün 3-4 oyunçu

**Oyun üçün lazım olanlar:** hər iştirakçıya 4 apelsin

**Oyunun qaydaları:** bir-birindən 10-15 metr məsafədə 2 xətt çəkilir. Komandalar bu xətlərin arxasında dayanır. Xətlər boyu hər oyunçunun qarşısına təpə şəklində apelsin yığılır: altda 3, üstdə 1 apelsin olmaqla. Oyunçuların əsas məqsədi apelsin atıb rəqibin apelsin təpəsciyini dağıtmaqdır. Nişan alan oyunçu apelsinləri dağıda bilirsə, onları öz komandası üçün götürür. Oyun komandalardan birinin bütün apelsinlərini itirənədək davam edir. Apelsini top, kubik və s. ilə əvəz etmək olar.

## “Kabaddi” (Hindistan)

**İştirakçıların sayı:** cüt sayda istənilən qədər oyunçusu olan 2 komanda

**Oyun üçün lazım olanlar:** yaxşı əhval-ruhiyyə və sağlam ağciyərlər

**Oyunun qaydaları:** oyun meydançası iki yerə bölünür. Oyun başlanan kimi komandadan ilk oyunçu rəqib meydançasına girib əli və ayağı ilə rəqiblərindən birinə toxunmalıdır. Amma bu, o qədər də asan deyil. O, dərindən nəfəs alıb “ov” zamanı fasiləsiz “kabaddi! kabaddi! kabaddi!”, - deməlidir. Aldığı nəfəs qutaran kimi o, özü ova çevrilir və tez bir zamanda geri qaçıb əli və yaxud ayağı ilə öz meydançasına toxunmalıdır. Əgər onu tutsalar, hücuma qalib komanda başlayır. Bu oyun o qədər maraqlı və məşhurdur ki, hətta Asiyada Kabaddi yarışları belə keçirilir.



## “Kartof dueli” (Filippin)

**İştirakçıların sayı:** 2 nəfər

**Oyun üçün lazım olanlar:** çəngəllər və kartoflar

**Oyunun qaydaları:** oyunçular bir-birindən 1 metr məsafədə dizi üstə otururlar. İkinci ayağı döşəmədən ayırıb, əli yana açırlar ki, müvazinəti itirməsinlər. Hər birinin digər əlində bir dənə çəngələ keçirilmiş kartof olur. Məqsəd rəqibin kartofunu yerə salmaqdır. Bu oyunda güclülər deyil, cəld və ağıllılar qalib gəlir. Əgər kartaof düşərsə və yuxarı qalxan ayaq üç dəfə yerə dəyərsə oyunçu “ölür”.



## “Üç daş” (Fransa)

**İştirakçıların sayı:** 2 nəfərdən 4 nəfərə qədər

**Oyun üçün lazım olanlar:** ovuca sığan 3 daş, yaxud istənilən əşya.

**İki nəfər üçün oyunun qaydaları:** Hər iki oyunçu ovcunda 1, 2 və ya 3 daş tutur və əllərini arxada saxlayır. Hətta biclik işlədib ovucu boş da saxlamaq olar. İşarə verilən kimi yumruqlar irəli uzadılır. Hər oyunçu deməlidir ki, oyunda neçə daş var: 0 dan 6-ya qədər. Amma əgər birinci oyunçu “5” dedisə, ikinci başqa bir rəqəm deməlidir. Düz tapan öz daşlarından bir dənəsini atır və oyun davam edir. Əgər heç kəs tapmırsa, oyun sadəcə davam edir. Daşlarını ilk qutaran qalib gəlir. Bu qədim fransız oyunu əvvəllər mübahisələri həll etmək məqsədilə də oynanılırdı.





Виктор Голявкин

Когда Гога начал ходить в первый класс, он знал только две буквы: О — кружочек и Т — молоточек. И всё. Других букв не знал. И читать не умел.

Бабушка пыталась его учить, но он сейчас же придумывал уловку:

— Сейчас, сейчас, бабуся, я тебе вымою посуду.

И он тут же бежал на кухню мыть посуду. И старенькая бабушка забывала про учёбу и даже покупала ему подарки за помощь в хозяйстве. А Гогины родители были в длительной командировке и надеялись на бабушку. И конечно, не знали, что их сын до сих пор читать не научился. Зато Гога часто мыл пол и посуду, ходил за хлебом, и бабушка всячески хвалила его в письмах родителям. И читала ему вслух. А Гога, устроившись поудобней на диване, слушал с закрытыми глазами. «А зачем мне учиться читать, — рассуждал он, — если бабушка мне вслух читает». Он и не старался.

И в классе он увиливал как мог.

Учительница ему говорит:

— Прочти-ка вот здесь.

Он делал вид, что читает, а сам рассказывал по памяти, что ему бабушка читала. Учительница его останавливала. Под смех класса он говорил:

— Хотите, я лучше закрою форточку, чтобы не дуло.

Или:

— У меня так кружится голова, что я сейчас, наверное, упаду...

Он так искусно притворялся, что однажды учительница его к врачу послала. Врач спросил:

— Как здоровье?

— Плохо, — сказал Гога.

— Что болит?

— Всё.

— Ну, тогда иди в класс.

— Почему?

— Потому что у тебя ничего не болит.

— А вы откуда знаете?

— А ты откуда знаешь? — засмеялся врач. И он слегка подтолкнул Гогу к выходу. Больным Гога больше никогда не притворялся, но увиливать продолжал.

И старания одноклассников ни к чему не привели. Сначала к нему Машу-отличницу прикрепили.

— Давай будем серьёзно учиться, — сказала ему Маша.

— Когда? — спросил Гога.

— Да хоть сейчас.

— Сейчас я приду, — сказал Гога.

И он ушёл и не вернулся.

Потом к нему Гришу-отличника прикрепили. Они остались в классе. Но как только Гриша открыл букварь, Гога полез под парту.

— Ты куда? — спросил Гриша.

— Иди сюда, — позвал Гога.

— Зачем?

— А здесь нам никто мешать не будет.

— Да ну тебя! — Гриша, конечно, обиделся и сейчас же ушёл.

Больше к нему никого не прикрепляли.

Время шло. Он увиливал.

Приехали Гогины родители и обнару-





жили, что их сын не может прочесть ни строчки. Отец схватился за голову, а мать за книжку, которую она привезла своему ребёнку.

— Теперь я каждый вечер, — сказала она, — буду читать вслух эту замечательную книжку своему сыночку.

Бабушка сказала:

— Да, да, я тоже каждый вечер читала вслух Гогочке интересные книжки.

Но отец сказал:



— Очень даже напрасно вы это делали. Наш Гогочка разленился до такой степени, что не может прочесть ни строчки. Прошу всех удалиться на совещание.

И папа вместе с бабушкой и мамой удалились на совещание. А Гога сначала заволновался по поводу совещания, а потом успокоился, когда мама стала ему читать из новой книжки. И даже заболтал ногами от удовольствия и чуть не сплюнул на ковёр.

Но он не знал, что это было за совещание! Что там постановили!

Итак, мама прочла ему полторы страницы после совещания. А он, болтая ногами, наивно воображал, что так и будет дальше продолжаться. Но когда мама остановилась на самом интересном месте, он опять заволновался.

А когда она протянула ему книгу, он ещё больше заволновался.

— А дальше читай сам, — сказала ему мама.

Он сразу предложил:

— Давай я тебе, мамочка, вымою посуду.

И он побежал мыть посуду.

Но и после этого мама отказывалась читать.

Он побежал к отцу.

Отец строго сказал, чтобы он никогда больше не обращался к нему с такими просьбами.

Он сунул книгу бабушке, но она зевнула и выронила её из рук. Он поднял с пола книгу и опять отдал бабушке. Но она опять выронила её из рук. Нет, раньше она никогда так быстро не засыпала в своём кресле! «Действительно ли, — думал Гога, — она спит или ей на совещании поручили притворяться? » Гога дёргал её, тормошил, но бабушка и не думала просыпаться.

А ему так хотелось узнать, что дальше происходит в этой книжке!

В отчаянии он сел на пол и стал рассматривать картинки. Но по картинкам трудно было понять, что там дальше происходит.

Он принёс книгу в класс. Но одноклассники отказывались ему читать. Даже мало того: Маша тут же ушла, а Гриша вызывающе полез под парту.

Гога пристал к старшекласснику, но тот щёлкнул его по носу и засмеялся.

Как дальше быть?

Ведь он так никогда и не узнает, что дальше в книге написано, пока не прочтёт её.

Оставалось учиться.

Читать самому.

Вот что значит домашнее совещание!

Вот что значит общественность!

Он вскорости прочёл всю книгу и много других книг, но по привычке никогда не забывал сходить за хлебом, вымыть пол или посуду.

Вот что интересно!



# Lumiar sadəcə məktəb deyil — Lumiar həyat məktəbidir




Maraqlıdır... Özümə maraqlı gəldiyi üçün bu məktəb haqqında sənə danışmaq istədim. Sən elə bir məktəb görmüsən ki, orada müəllim olmasın? Məncə yox. Mən də görməmişəm... Amma belə məktəb var. Uzaq-uzaq Braziliyada. Bu məktəbdə nəinki müəllimlər yoxdur, burada sən demə heç dərs də olmur. Dərssiz və müəllimsiz nə məktəb? Amma dərssiz və müəllimsiz də xoşbəxt, ağıllı və bacarıqlı olmaq olurmuş. Lumiarda bütün bunlar olur. “Lumiar” bizi təəccübləndirən məktəbin adıdır.

**Məktəb haqqında**

Bu məktəbi uğurlu iş adamı Rikardo Semler 2003-cü ildə açıb. Əvvəllər o, işçilər arasında özünüidarə qaydaları qoyulmuş ailə kompaniyasına başçılıq edirdi. Əldə etdiyi uğurlu nəticəni uşaqların təlim və tərbiyəsində də həyata keçirməyi düşünən iş adamı Lumiar adlı məktəbi açdı... Açdı və böyük uğurlar əldə edə bildi.





## Müəllimlər yoxdur — tyutorlar və ustalar var

Semler belə qərara gəldi ki, müasir dövrdə müəllimlik sənətinin heç bir rolu yoxdur. Google bütün məlumatları verə bilir və müəllimin bildikləri bunun yanında heç nədir. Elə bu səbəbdən Lumiarda müəllimlər olmadı. Yalnız tyutorlar və ustalar oldu.

**Tyutor** — o kəsdir ki, uşaqla maraqlanır, onun ailə xəbərlərini dinləyir, məktəbdəki həyatını müşahidə edir, çətin və asan arzularını öyrənir, problemlərinin həllinə bilavasitə yardım edir, dost ola bilir və s.

**Usta** — müəyyən layihə üzrə işə yardım edir, uşaqların məlumatlılıq məsuliyyətini daşıyır. Lumiarda ustalar müəyyən bir sahə üzrə ixtisaslaşmış və elmi dərəcəsi olan insanlardır. Onların seçimində yaş məhdudiyyəti yoxdur. Amma ilk ustalar təqaüdçülərdən seçilmişdi — dünyagörmüş və hazırda asudə vaxt problemi yaşamayan insanlardan.

## Siniflər yoxdur — müxtəlif yaş səviyyəsini birləşdirən qruplar var

Lumiarda şagirdlər qruplarda müəyyən maraqlarına görə birləşirlər. Ona görə də Lumiar-



da hər uşaq öz gücünə və qabiliyyətinə uyğun işlə məşğuldur, əlavə meyllər, intizamsız şagird qruplaşmaları və s. müşahidə edilmir.

## Dərslər yoxdur — layihələr var

Lumiarda dərs cədvəli və fənlər yoxdur. Burada şagirdlər layihə irəli sürür və onun üzərində iş aparırlar. Bir layihənin müddəti 2 ay olur.

Layihələr təxmini belə ola bilir:





**Bu mətbəxdir:**

Mətbəx — ağıl və bacarıq nümayişidir. Müxtəlif ərzaq məhsullarının tərkibi, keyfiyyəti, uyarlılığı haqqında ləzzətli və qaynar əyləncə məkanıdır.

**MolekuLav:**

Kimya — ən çətin fənlərdən biri. Bu layihədə şagirdlər insan orqanizmində sevib-seviləndə,



səmimiyyət, simpatiya, məmnuniyyət anlarında baş verən kimyəvi prosesləri öyrənir. Adrenalin, vazopressin, dofamin... Və s. Hansı hiss hansı kimyəvi elementlərlə müşaiyət olunur...

## Növbətçilər və direktor müavinləri

Yoxdur... Özünüidarə var. Vəssalam. Məktəbin idarəetməsində hamı iştirak edir — valideynlər, müəllimlər, şagirdlər, tyutorlar və ustalar. Onlar öz davranış qaydalarını özləri tənzimləyir. Onlar "məktəb-məktəb" oyunu oynamırlar. Onlar məktəbi yaşayırlar.

## Cavab vermək üçün lövhəyə



## çağrılmırsan

Məktəbin hər yeri interaktiv ərazi hesab edilir. İstəyirsən — parta arxasında otur, istəyirsən — döşəmədə, istəyirsən — otun üzərində. Hətta məktəbin bir çox divarları da hərəkətlidir. Divarı çək, otaq böyüsün və kiçilsin.

## İmtahanlar və testlər yoxdur

Kompleks qiymətləndirmə var. Bu məktəbdə əsas kimi jurnala düzülmüş qiymətlər götürülmür. Əsas şagirdin biliklərini həyata keçirməsidir.

## Ev tapşırığı yoxdur

Sadəcə öyrənmək həvəsi var. Şagird qoşulduğu layihə barədə yalnız məktəbdə də öyrənə bilər, istəsə evdə də əlavə nə isə oxuyar, ya filmə baxar, yaxud da internet üzərində sosioloji sorğu keçirdər.

Lumiar sadəcə məktəb deyil — Lumiar həyat məktəbidir. Bu məktəbdə ən müxtəlif həyat hadisələri öyrənilir, müzakirə edilir, nəticələr çıxardılır. Məsələn, sevgi nədir, biz bu dünyaya nə üçün gəlmişik və niyə yaşayırıq?!

İnsan həyatının ən əyləncəli zamanı, ən yaxın dostunla keçirdiyin zamandır, şübhəsiz. Bütün dövrlərin ən yaxın dostu isə KİTAB-dır. Bu dostluqdan sənə gələn nəhayətsiz sevgi, səmimiyyət isə heç nə ilə ölçülə bilməz... Elə mütaliənin ölçülməyən dəyərləri haqqında bir neçə fakt...

## Oxumaq, oxumaq, yenə də oxumaq



**Mütaliə baxışı itiləşdirir...**

Mütaliə ətraf mühiti daha aydın görməyə və dəyərləndirməyə kömək edir. Gözəl və maraqlı kitabı mütləq ikinci dəfə oxu – çünki yeni nələrsə görəcəksən.

**Mütaliə sənin pulqabın üçün çox sərfəlidir...**
Kitab bahalı əyləncələrdən sığınacaqdır. O, daha ucuz və daha bol məlumat verəndir. Və bir də... Kitab almasan da olar. F. Köçərli adına kitabxanada xidmət pulsuzdur (Eləcə də bütün digər kitabxanalarda). Nə qədər istəsən, nə zaman istəsən xidmətdən yararlana bilərsən.

**Mütaliə gözəl bədən ölçülərinə doğru aparır...**

Oxuyan insan depressiyadan uzaq olur. Darıxmır və həyatdan bezmir. Deməli, bütün çətinliklərin açarını dadlı və ləzzətli şirniyyatlarda, kalorili yeməklərdə axtarmır.

**Mütaliə asudə vaxtı mənalı edir...**

Sən heç vaxt oxumaqdan yorulmazsan. Çünki o qədər maraqlı kitab var ki, nəinki bir, hətta bir neçə həyat yaşasan belə, onları oxuyub qutara bilməzsən. "Öz" kitabını tapmayınca ruhdan düşmə, çünki o, sənin həyatını dəyişə bilər.

**Mütaliə ətraf mühitə müsbət təsir göstərir...**

Əgər sən kitab oxuyursansa, deməli oxuduğun kitab üçün kəsilən ağac nahaqdan kəsilməyib.

**Mütaliə ünsiyyəti öyrədir...**

Sənin maraqlı söhbətlərin ən darıxdırıcı situasiyalardan əsl çıxış yolu ola bilər. Gözəl müsahib və tərəfmüqabili olmaq üçün yol yalnız mütaliədən keçir.

**Mütaliə sənin fiziki sağlamlığını qoruyur...**

Hərflərdən sözlər, sözlərdən cümlələr düzəltmək, müəllif fikrini anlamaq və əsərə öz münasibətini formalaşdırmaq – beyin üçün idmandır. Və yadda saxla, gözəl kitabları oxusan, bu idman zamanı heç bir zədə almazsan!

**Mütaliə rahatlıq və dinclik gətirir...**

Ətrafındakılar – valideynlər, müəllimlər sənin kitab oxumaq həvəsini o qədər bəyənəcəklər ki, səni heç nə ilə narahat etmək istəməyəcəklər.



**Mütaliə diqqəti cəmləşdirir...**

Səsli-küylu toplantılarda, musiqi sədaları altında, təyyarədə və qatarda, avtobusda və metroda, evdə və otel otağında, harada istəsən, oxuya bilərsən.

# Bizim yeni



*Pətrik Veqan*
*"Mənim ilk atlasım"*






Kitabda, yer kürəsi, bütün qitələr, ölkələr və paytaxtları, dünya dövlətlərinin bayraqları barədə qısa və vizual məlumatların toplanıb.




*Nə? Niyə? Nə üçün? Sual- cavaba dair böyük kitab*

Kitabda materiya və enerji, kainat və Yer kürəsi, ölçülər və formalar, canlı təbiət, səyahət və.s mövzuları əhatə edən maraqlı məlumatlar əldə etmək olar.

*Murad Adcı.*
*"Türk və Dünya: Munis Tarixımiz"*

Kitabda türkün tarixin dərinliyindəki xidmətlərindən, mədəniyyət tarixindən, tarixi coğrafiyasından, Asiya və Avropanın demoqrafik təşəkkülündəki rolundan danışılır.







*Paskal Romano*
*"Böyük fokuslar kitabı"*






Kitabda təzə başlayan sehrbaz üçün bütün zəruri olanı tapmaq mümkündür. Böyük magiyanın kiçik "sirləri", səhnə ləvazimatları üçün ülgülər və xüsusi hazırlıq tələb etməyən effektli fokuslar və s.

*Hatice Kübra Tonqar.*
*"Anacan mən böyüyürəm"*

Kitabda, 1-5 yaş arası uşaqların inkişafı, qidalanması, oyunları öz əksini tapıb.




***Yeni Uşaq Ensiklopediyası***

Kitab, 9000-dən artıq qeydlər, faktlar, məqalələr və 2500 tam rəngli şəkildən ibarətdir.

***Çingiz Aytmatov***
***"Çingiz xanın ağ buludu"***






Povestdə totalitar dövlət marağı, hökmdar hökmü ilə əbədi bəşəri dəyərlər - insan taleyi, adi adamların böyük sevgisi üz-üzə qoyulur.




***İlyas Əfəndiyev***
***"Dağlar arxasında üç dost"***

Əsərdə səmimi dostluq və ülvi məhəbbət hissləri ilə yanaşı cürbəcür insan xarakterlərindən, düşmənçiliyə gətirib çıxaran kəskin insan komplekslərindən də söhbət açılır.

***Günel İmran***
***"Maya və ifritənin büllür ürəyi"***

Maya adlı balaca qızın başına gələn qorxulu, sirli- sehrli əhvalatın necə bitdiyini bu kitabdan biləcəksiniz. Başqa dünyada azmış Maya öz evlərinə gedən yolu tapa biləcəkmi ? Kitabı oxuyanlar bu suala cavab tapacaqlar.




***Adel Faber, Eleyn Mazliş.***
***"Necə danışmalı ki, uşaqlar dinləsinlər, necə dinləməli ki, uşaqlar danışsınlar"***

Bu kitab - uşaqlarla necə düzgün ünsiyyət qurmaq barədə məntiqli, anlaşılan və yumor hissi ilə yazılan bir dərslikdir.




***İsmayıl bəy Qaspralı***
***"Firəngistan məktubları"***






Əsərdə İslam dünyasının problemləri, tarixi inkişaf yolları diqqət mərkəzinə çəkilir.




***Nuran Direk***
***Filosof uşaq. "Uşaqlarla fəlsəfi söhbət"***

Müəllif, 8 yaşlı bir uşağın gündəlik həyat təcrübələrinə əsaslanaraq insan haqları, ədalət, yaxşılıq, pislik, doğru, səhv kimi məfhumlarla bağlı suallara cavab verir və bu yolla uşaqların hökm çıxarmaq bacarığını inkişaf etdirməyə çalışır.



# Məntiqi sual

Alt xətlərdən hansı üst xəttin davamıdır?!





Bu saatlardan biri oyuncaq-saatdır. Onları bir-birindən necə fərqləndirmək olar?

Rəqəmlərin yerini dəyişmədən onların arasında “+”, “-“ işarələrini elə qoy ki, nəticə 100-ə bərabər olsun.

*Diqqət: Cəmi 3 dəfə işarədən istifadə edə bilərsən.*

1 2 3 4 5 6 7 8 9 = 100



İnsan beynində yaddaş üçün yer qutara bilərmi?



Bu ağacları elə ək ki,
hərəsində 4 ağac olmaqla 5 sıra alınsın.



## Ötən sayımızdakı məntiqi sualların cavabları




Sualda necə deşik olduğu soruşulmadığı üçün, doğru cavab 8-dir. Boyun, iki qol və ətək, üstəgəl şəkildəki iki deşik hər iki tərəfdən olduğu üçün 4.









# İlbiz yürüşü








*Düşünürəm ki, çox ciddi bir məsələdə də bəzən qeyri-ciddi olmaq ovqatı yüksəldər. Biz bu rubrikada o qədər ciddi idman növlərindən danışmışıq ki. Bu gün sənə çox ləng və astagəl idmançılardan, bapbalaca idman meydançasından, sürətsiz yürüşdən danışmaq istədim. Tısbağalardan?! Tapmadın. Bu idmançılar daha astagəldilər... Yəni ki, tısbağa hara, ilbiz hara?!*

Əgər İngiltərədə və yaxud İrlandiyada yaşasaydın, bu idman növünün izləyicisi ola bilərdin. İlbiz yürüşünün... “Sprinter” çox kiçik bir məsafəni qət etməlidir.

Bu idman növü getdikcə məşhurlaşır. Yürüş ilbizləri elə biz tanıdığımız bağ ilbizləridir. Yürüş yolu isə masanın üzərinə sərilmiş nəm əski. Ənənəvi qət ediləcək məsafə 13-14 dyum. Xatırladım ki, 1 dyum 2,54 sm-dir.  Yarışmaçıların nömrələri onların kürəyindəki evciyin üzərində böyük rəqəmlərlə yazılır ki, izləyicilər onları ayırd edə bilsinlər. Oyunun tarixi 1960-cı ildən başlayır. İlk yarışlar ingilis qraflığı Norfolkda keçirilib.

Norfolkdan Londona keçib və yayılıb. Yarışlar televiziya ilə yayımlanır. Şərhçi isə tanınmış teleaparıcı Con Kririkdir. O bir dəfə yürüşü bu sözlərlə başladı:”Start! Diqqət! Sürəti azaldın!” Və bu da ilbiz yürüşlərinin şüarına çevrildi.

Ən müasir ilbiz yürüşləri Sneyluel kəndində keçirilir. "Sneyluel" – ilbiz dolu quyu deməkdir.









# DUBANCI





Məncə, "Göy qurşağı"nın bugünkü qəhrəmanı dələlərdir. Və biz də mütləq onların sevdiyi ağacın, yəni palıdın qozalarından nə isə düzəltməliyik. Elə isə dünya xalqlarının əl işlərinə nəzər yetirək. Bəlkə yolumuzu Çexiyadan salaq?! Çexiyanın gülməli fiqurları olan Acorn Elflərini düzəltmək üçün palıd qozalarından istifadə edilir. Çexlər Acorn elflərinin təsvir olunduğu açıqcaları, təqvim, köynək və fincanları çox sevirlər. Dostum, şəkillərə diqqətlə bax. Düşünürəm ki, sənin əla Acorn Elfi hazırlamaq bacarığın var. Amma əvvəlcə meşəyə gedib palıd qozası yığmağı unutma!

















**Baş redaktor:** Şəhla Qəmbərova
**Redaktor:** Sevinc Nuruqızı
**Korrektor:** İlahə Quliyeva
**Bədii tərtibat:** Aqil Tağıyev

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
**Ünvan:** Bakı AZ1022 S.Vurğun küçəsi 88
**Tel:** (+99412) 5970851,
**Faks:** (+99412) 5970879.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.
**Qeydiyyat nömrəsi:** № 3926 – 06.11.2014
2006-cı ilin noyabrından çıxır.

**Təşkilati dəstək:** Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
**Təsisçi:** F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**Üz qabığında:** Konstedaylo Ruslan

**web:** www.clb.az
**facebook:** fb.com/clb.az
**twitter.com/**childlibbaku
**instagram:** firidunbey_kocerlikitabxanasi
**youtube:** F.Köçərli adına Respublika Uşaq Kitabxanası